# Uğur olsun, “Uğur” Milli Mükafatının qalibləri

Üzümçülük təsərrüfatı ötən əsrin 70-80-ci illərində həm Azərbaycanın müxtəlif regionlarında, həm də Qəbələdə geniş şəkildə inkişaf etmişdir. Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasətin nəticəsində ölkəmizdə üzüm istehsalı 1,6 milyon tona çatmışdır. Bu illərdə üzümçülüklə məşğul olan təsərrüfatlar və bu sahədə çalışan əmək adamları üzüm məhsullarından daha çox mənfəət əldə etmişlər. Eyni zamanda emal sənayesinin inkişafına xüsusi diqqət yetirilmişdir. Əksər rayonlarda şərab istehsalı müəssisələri tikilib xalqın ixtiyarına verilmişdir.

Çox təəssüf ki, bu proses uzun dövr davam etmədi. Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk illərdən başlayaraq o dövrdə hakimiyyət başında oturanların səhlənkarlığı ucbatından üzümçülük təsərrüfatı məhv oldu, şərab emalı müəssisələri ləğv edildi.




Lakin ümummilli liderimiz Heydər Əliyev xalqın arzu və istəyi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra aqrar sahənin inkişafına, xüsusilə üzümçülük təsərrüfatının yenidən bərpasına münbit şərait yaradıldı, aqrar sektorun bütün sahələrinin bərpası ilə əlaqədar ulu öndər bir neçə sərəncama imza atdı.

Bu gün Prezident İlham Əliyev ulu öndərin siyasi xəttini uğurla davam etdirir, kənd təsərrüfatının tərəqqisi üçün çox mühüm addımlar atır. Prezidentimizin 2011-ci il 15 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş «2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı» üzümçülərə qol-qanad verdi, üzümçülüyün və şərabçılığın kompleks şəkildə inkişafında yeni üfüqlər açdı. Bu baxımdan Qəbələ “ASPİ-AQRO” MMC üzümçülərinin fəaliyyətə başladığı qısa zaman kəsiyində qazandıqları uğurlar daha çox sevindiricidir. 2007-ci ildə fəaliyyətə başlayan “ASPİ-AQRO” üzümçülük təsərrüfatı sürətlə inkişaf edir, nailiyyətləri ilbəil artır. Bu cəmiyyət rayonun Quşlar kəndinin və İsmayıllı rayonunun ərazisində 229 hektar üzüm bağları salmışdır. Bu plantasiyaların 80 faizi bar verən bağlardır. Prezidentin məlum sərəncamından sonra daha burada 32 hektar sahədə yeni üzüm tənəkləri əkilmişdir. Tənəklər əsasən Fransadan, İtaliyadan gətirilən ən məhsuldar, dadına və keyfiyyətinə görə seçilən Kaverne, Savinino, Rino, Nuar, Marlo, Sultanina, Kardinal və Mutilya üzüm sortları həm süfrə, həm də şərab emalı üçün daha çox barvermə qabiliyyətinə malikdir.

Cari ilin üzüm yığımı dövründə bağlardan 1000 tona yaxın süfrə və texniki sortlardan ibarət məhsul götürülmüşdür. Texniki sortlardan ibarət olan üzüm məhsulu Qaradeyn kəndinin ərazisində yeni inşa edilən emal müəssisəsinə göndərilmişdir. Bu emal müəssisəsinin inşasına 2010-cu ildə başlanmışdı. Burada quraşdırılan texnaloji avadanlıqlar İtaliyadan gətirilmişdir. Zavodun istehsal sexləri hamısı avtomatlaşdırılmışdır. Məhsulun qəbulundan, üzümün sıxılmasından tutmuş onun emalına, şərabın ayrılmasına kimi bütün proseslər itkisiz, tər-təmiz aparılır. Analoqu olmayan bu zavodda mövsüm ərzində ən azı 80 nəfər mütəxəssis və fəhlə işləyir. Zavod 20 adda şərab, 1 adda konyak istehsal etmək gücünə malikdir. İlboyu bu emalı müəssisəsində milyonlarla şərti butulka şərab istehsal etmək olur. Emal olunan məhsulların keyfiyyətinə söz ola bilməz. Elə buna görə bu istehsal müəssisəsi respublikada sayılıb-seçilən müəssisələr cərgəsində yaxşı yer tutub.

Bu günlərdə Bakıda Azərbaycanda iqtisadiyyat və biznes sahəsində təsis edilən «Uğur» Milli Mükafatının qaliblərini müəyyənləşdirmək məqsədilə keçirilmiş tədbirdə cəmiyyətin fəaliyyətinə yüksək qiymət verildi. Bu mükafat uğrunda ölkəmizdə fəaliyyət göstərən müxtəlif şirkətlərin--kənd təsərrüfatı, sənaye, tikinti və qeydiyyatdan keçmiş digər sahələrinin çoxsaylı iş adamları mübarizəyə qoşulmuşdur. Xatırladaq ki, «Uğur» Milli Mükafatı «Consulting Business iqtisadiyyat və biznes» jurnalı tərəfindən 2000-ci ildə təsis edilib. «Uğur» Milli Mükafatı iş adamlarına, dövlət və ictimai xadimlərə onların milli iqtisadiyyatın möhkəmlənməsi və inkişafında olan xidmətlərinə, yeni iş yerlərinin yaradılmasına görə verilən ilk mükafatdır. O, özünü təkcə qabaqcıl şirkətlərdən ibrət götürən ictimai institut kimi deyil, eyni zamanda Azərbaycan biznesinin yeni imicini formalaşdıran bir ictimai təsisat kimi tanıtmışdı. Mükafatın əsas məqsədi yüksək effektivliyə, sabit inkişafa və ictimai məsuliyyətə malik olan kampaniyaların nailiyyətlərini qeyd etməkdən ibarətdir.

«Uğur» Milli Mükafatı uğrunda mübarizəyə Qəbələ «ASPİ-AQRO» MMC-nin kollektivi də qoşulmuşdur. Cəmiyyət öz istehsalı olan şərab və digər məhsullarını nümayiş etdirmişdir. «Uğur» Milli Mükafatının laureatları Ekspertlər Şurasının üzvləri tərəfindən müəyyənləşdirilir. Nəticədə Qəbələ «ASPİ-AQRO» MMC-nin istehsal etdiyi «Savalan» şərabı keyfiyyətinə, effektivliyinə görə beşballı sistem əsasında qiymətləndirilmişdir. Beləliklə, Ekspertlər Şurasının üzvləri «Uğur» Milli Mükafatının qalibi Qəbələ «ASPİ-AQRO» MMC elan edilmişdir. Redaksiyanın kollektivi «Uğur» Milli Mükafatının qaliblərini ürəkdən təbrik edir, onlara gələcək işlərində yeni uğurlar arzulayır.

**Aslan CƏLİLOV.**

# Doğma ölkəmizdə

## 2013-cü ildə Azərbaycan iqtisadiyyatında yeni uğurlar gözlənilir

«Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda son 4 ildə, o cümlədən ötən il nəzərdə tutulmuş vəzifələr uğurla icra olunmuşdur. 2013-cü ildə də iqtisadiyyatın yeni uğurları gözlənilir.

Cari ildə iqtisadi artım 5,3 faiz həcmində proqnozlaşdırılır. Bu, əsasən daha dinamik inkişaf edən qeyri-neft sektorunun hesabına təmin olunacaqdır. Belə ki, 2013-cü ildə qeyri-neft sektorunun 11,7 faiz artacağı gözlənilir. Bu il dövlət büdcəsinin gəlirləri 19 milyard 159 milyon, xərcləri isə 19 milyard 850 milyon manat müəyyən edilmişdir. Həmin göstəricilər 2012-ci illə müqayisədə müvafiq olaraq 12,4 və 12,1 faiz çoxdur.

## Ötən il sahibkarlara 218 milyon manat güzəştli kredit verilmişdir

Sahibkarlara Kömək Milli Fondunun vəsaitləri hesabına 2012-ci ildə 2419 sahibkarlıq subyektinə 218 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlərin 83 faizini regionlarda fəaliyyət göstərən iş adamları almışlar. Kreditlərin hesabına 9100-dək yeni iş yerlərinin açılması nəzərdə tutulmuşdur.

Aqrar sektorun inkişafı üçün 2260 sahibkara 148,5 milyon manat güzəştli kredit verilmişdir. Bu da 2011-ci ilə nisbətən maliyyələşdirilən layihələrin sayının 47,4, məbləğinin isə 35,8 faiz artması deməkdir.

## Ötən il ölkə iqtisadiyyatı dinamik inkişafını qoruyub saxladı

Ötən il Azərbaycan iqtisadiyyatı əvvəlki illərdə olduğu kimi dinamik inkişafını qoruyub saxlamışdır. 11 ay ərzində ölkədə 31 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir və xidmətlər göstərilmişdir. İl ərzində 60-dan çox müxtəlif sənaye, kənd təsərrüfatı müəssisələri və sosial obyektlərin açılışı olmuşdur. Bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 1559,5 min kvadratmetr olan yeni yaşayaş evləri, 15 çarpayılıq xəstəxana, növbədə 861 nəfəri qəbul edən ambulatoriya-profilaktika müəssisəsi, 29908 şagird yeri olan ümumtəhsil məktəbi binaları, 986 yerlik məktəbəqədər təhsil müəssisələri, 40 yerlik klub və digər müxtəlif təyinatlı obyektlər tikilib istifadəyə verilmişdir.

## İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlıq işlərinə başlanmışdır

2013-cü il may ayının 29-dan iyun ayının 1-dək Bakıda İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcəkdir. Forumla bağlı artıq hazırlıq işlərinə başlanmışdır. İkinci Bakı Forumu «Dünyanın gələcəyini necə quraq» devizi altında keçiriləcəkdir. Ali qonaqların iştirakı ilə ilk plenar sessiya bu mövzuda aparılacaqdır.

Xatırladaq ki, birinci Bakı Forumu 2011-ci ilin aprel ayında reallaşmışdır. Bu Forumda dünyanın 102 dövlətinin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişlər.